# ERMƏNİ TERRORİZMİ

Yetərli siyasi və hərbi gücün olmadığı bir şəraitdə erməni terrorizmi dünyanın hər yerinə səpələnmiş ermənilər üçün vahid yaşayış məkanının yaradılması naminə zəruri resursların və münbit ərazilərin əldə edilməsi üçün effektiv alət kimi istifadə olunurdu. Erkən erməni siyasi təsisatları olan Armenikan (1885), Hnçak (1887) və Erməni İnqilabi Federasiyası-Daşnaksütun/EİFD (1890) terroru “düşmənlər” ilə mübarizə və erməni etnosunun erməni Qriqorian kilsəsinin etnik-dini sektasından dövlətçiliyə malik monoetnik millətə çevrilməsi işində səfərbəredici bir vasitəsi kimi tanımış və istifadə etmişlər.

Erməni terrorizminin ilk təzahürü 26 avqust 1896-cı ildə qeydə alınmışdır. Həmin zaman EİFD-nin rəhbər üzvlərindən biri Karekin Pastırmacıyanın başçılıq etdiyi EİFD-nin 28 silahlı üzvü İstanbuldakı Osmanlı Mərkəzi Bankını ələ keçirərək əksəriyyəti Avropa vətəndaşları olmaqla 156 mülki şəxsi girov götürmüşlər. 14 saatlıq silahlı basqın Avropa səfirliklərinin məsələyə qarışmasına səbəb olmuş və EİFD üçün müsbət siyasi nəticələr vermişdir. Belə ki, Pastırmacıyan Osmanlı Parlamentində erməni icmasının nümayəndəsi kimi yer almış, sonralar isə Ermənistanın ABŞ-dakı səfiri təyin edilmişdir ki, bu da erməni millətçi maraqlarının irəliləməsində terrordan istifadənin effektivliyini açıq şəkildə büruzə vermişdir.

Erməni terrorizminin ilkin uğuru XIX əsrin sonu, XX əsrin əvvəllərində Hnçak və EİFD-nin üzvləri və tərəfdarları tərəfindən yüksək səviyyəli şəxslərin silsilə qətllərinə təkan vermişdir (Erməni terrorunun qeyri-müfəssəl xronologiyası əlavə olunur).

Erməni icması arasında böyük dəstək alan erməni terrorizmi qarşısında dayan istənilən şəxsə, o cümlədən özünün və digər etnik qrupların nümayəndələrinə münasibətdə ciddi nifrət və nifaqı ilə seçilirdi.

Bunun bariz nümunəsi 1918-ci ilin mart ayında azərbaycanlılara qarşı törədilən amansız qətliam olmuşdur. Azərbaycanlılar ən sevilən milli bayramı - Novruz bayramını qeyd edərkən, EİFD-nin minlərlə silahlı terrorçusu Azərbaycanın şəhər və kəndlərinə basqın etmiş və azərbaycanlılara qarşı misli görünməmiş qəddarlıqla kütləvi qırğınlar törətmişlər. Həmin günlərdə 50 mindən çox azərbaycanlı məhv edilmişdir.

Bir il sonra EİFD 1915-ci ildə Osmanlı Türkiyəsində baş vermiş hadisələrin “qisasının alınması” məqsədi daşıyan "Nemezis" adlı gizli əməliyyata başlamışdır. 1920-ci illərdə “Nemezis” əməliyyatı çərçivəsində bir sıra xarici ölkələrdə Türk rəsmilərinə qarşı terror aktları və qətllər həyata keçirilmişdir ki, bu da erməni terrorizminin miqyasını və coğrafiyasını dünya genişləndirmişdir.

Bu dövrdə Azərbaycan Xalq Cümhuriyyətinin qurucularına və vəzifəli şəxslərinə qarşı da terror aktları törədilmişdir. 1920-ci ildə erməni terrorçuları Fətəli Xan Xoyski və Həsən bəy Ağayevi qətlə yetirmişlər.

XX əsrin ortalarında erməni terrorizmi bir müddət səngiyərək, Yaxın Şərq və Avropanın ermənilərin məskunlaşdığı regionlarında gizli fəaliyyət göstərən erməni terror təşkilatları çərçivəsində təsisatlanmışdır. “Ermənistanın Azadlığı üçün Gizli Erməni Ordusu” - ASALA (1975), “Erməni Soyqırımı Ədalət Komandanlığı” - JCAG(1975), “Yeni Erməni Müqaviməti”- NAR (1977) və digər ekstremist qruplara məxsus erməni terrorçuları Fransa, İsveçrə, İtaliya, ABŞ, Livan, Türkiyə, İran və Böyük Britaniyada türk rəsmilərinə qarşı hücumlar törətmiş, səfirlər də daxil olmaqla,

30-dan artıq türk diplomatını qətlə yetirmişlər. 1970-1990-cı illərdə erməni terror təşkilatlarının müxtəlif ölkələrdə 70-dən çox insanın ölümü ilə nəticələnmiş yüzlərlə terror aktı bir sıra beynəlxalq hüquqi aktların, o cümlədən 1988-ci ilin fevral ayında Birləşmiş Millətlər Təşkilatı tərəfindən "Mülki aviasiyaya xidmət edən hava limanlarında qanunsuz zorakılıq aktlarının qarşısının alınması haqqında Protokol"un qəbul olunmasını sövq etmişdir.

1980-ci illərdə Ermənistanın Azərbaycanın Qarabağ bölgəsinə qarşı qanunsuz və əsassız ərazi iddialarının ortaya çıxması ilə, erməni terror təşkilatlarının fəaliyyəti Azərbaycana yönəldi. 1980-ci illərin ikinci yarısı erməni terrorçularının Azərbaycan ərazisində əsasən sərnişin avtobuslarının və metro qatarlarının partlayışları ilə müşahidə olunan terror aktları ilə qeydə alınmışdır. 1980-ci illərin sonu - 1990-cı illərin əvvəllərində törədilən bu terror aktları 2000-dən çox insanın ölümünə səbəb olmuşdur.

1991-ci ildə müstəqilliyini qazandıqdan sonra Ermənistan Respublikası Azərbaycana qarşı ərazi iddialarının irəliləməsində terrora da əl ataraq Azərbaycan Respublikasının ərazilərini işğal etmişdir. Erməni diasporu və xüsusi təhlükəsizlik xidməti orqanları tərəfindən maliyyələşdirilmiş və təchiz edilmiş Livan, Suriya, İran, Rusiya, Ukrayna, Yunanıstan, Bolqarıstan, Fransa və ABŞ-da yaşayan 6000-dən çox erməni Azərbaycan Respublikasının beynəlxalq səviyyədə tanınmış ərazilərinin işğalı və bir milyondan çox azərbaycanlının öz evlərindən zorla qovulmasında fəal iştirak etmişlər. Onların arasında Monte Melkonyan, Vazgen Sislyan və Qrant Markaryan kimi ad çıxarmış terrorçular da var idi.

Azərbaycan ərazilərinin işğalı zamanı əhalini dəhşətə salmaq üçün ümumilikdə terror taktikasından geniş istifadə olunurdu. Bu mənada, çoxsaylı faktlar arasında misal kimi 1992-ci il fevralın 25-dən 26-a keçən gecə 613 azərbaycanlı, o cümlədən 106 qadın və 63 uşaq vəhşicəsinə qətlə yetirildiyi Xocalı şəhərinin taleyini göstərmək olar.

Xüsusi diqqəti cəlb edən məqam ondan ibarətdir ki, Ermənistanın sabiq prezidentlərindən ikisi – Serj Sarqsyan və Robert Koçaryan Ermənistan tərəfindən Azərbaycanın işğal olunmuş ərazilərində yaradılmış qeyri-qanuni rejimin mülki əhalinin qırğınlarına rəhbərlik edən hərbi komandirləri olmuşlar. S.Sarqsyanın Britaniyalı jurnalist Tomas de Vaala müsahibəsində səsləndirdiyi aşağıdakı fikirlər Ermənistanın dinc əhaliyə qarşı planlaşdırılmış və sistematik zorakılıq tətbiq etdiyində heç bir şübhə doğurmur: "Xocalıdan əvvəl azərbaycanlılar elə bilirdilər ki, ermənilər dinc əhaliyə əl qaldıra bilməyən insanlardır. Biz buna son qoymalı idik və biz bunu [stereotipi] sındırmağa müvəffəq olduq".

1994-cü ildən sonra mülki şəxslərə qarşı terror aktları snayper hücumları və ya yaxınlıqdakı çaylara atılan partlayıcı oyuncaqlar şəklində davam etmiş və əsas qurbanları qadınlar, uşaqlar və qocalar olmuşdur. Məsələn, 2011-ci ildə Ağdam rayonunda snayper tərəfindən vurularaq öldürülən Fariz Bədəlov (2003-cü il təvəllüdlü), 2011-ci ildə Tovuz çayında tapdığı oyuncaqda quraşdırılmış partlayıcı qurğunun partlaması nəticəsində həlak olmuş Aygün Şahmalıyeva (1998-ci il təvəllüdlü), 2017-ci ildə Füzuli rayonunda mərmi atəşi nəticəsində öldürülən Zəhra Quliyeva (2015-ci il təvəllüdlü) erməni terrorunun qurbanı olmuş uşaqlar sırasındadırlar.

İfrat millətçilik əhval-ruhiyyəsindən doğan və "Böyük Ermənistan" yaratmaq xülyasından ruhlanan erməni terrorizmi daim ermənilərin dəyişən siyasi

məqsədlərinə uyğunlaşırdı. XIX əsrin sonlarında yaranmış və XX əsrin ortalarında sürətlə artan erməni terrorizmi Avropa, Asiya, Amerika və hətta Avstraliya da daxil olmaqla dörd müxtəlif qitədə baş verən 200-dən çox terror aktı ilə region ölkələri və onun hüdudlarından kənarda əsas təhlükəyə çevrilmişdir. Erməni millətçilik ruhunun hər bir kəskinləşmə mərhələsində daim terror və zorakılıqdan istifadə olunduğunu nəzərə alaraq, bu fenomenin həm regional, həm də beynəlxalq səviyyədə sülh, təhlükəsizlik və sabitliyin təmin edilməsi naminə aradan qaldırılması üçün müvafiq və vaxtında tədbirlər görülməlidir.

***Əlavə***

## Erməni terrorizminin xronologiyası

| | |
|---|---|
| 26 Avqust 1896 | Osmanlı Beynəlxalq Bankına silahlı hücum nəticəsində iki nəfərin qətlə yetirilməsi, dörd nəfərin yaralanması və 156 nəfərin girov götürülməsi, İstanbul, Osmanlı İmperiyası. Erməni İnqilabi Federasiyası-Daşnaksütun/EİFD məsuliyyəti öz üzərinə götürüb. |
| 1 May 1905 | Batumi vilayətinin general-qubernatoru general-mayor M. Dryaginə qarşı sui-qəsd, Batumi, Rusiya İmperiyası. Hnçak məsuliyyəti öz üzərinə götürüb. |
| 11 May 1905 | Bakı qubernatoru knyaz Mixail Nakaşidzeyə qarşı sui-qəsd, Bakı. Hnçak məsuliyyəti öz üzərinə götürüb. |
| 21 İyul 1905 | İstanbulda Yıldız məscidində Sultan II Əbdül-Həmidə qarşı avtomobil partlayışı vasitəsilə sui-qəsd cəhdi nəticəsində 20 nəfərin həlak olması. EİFD məsuliyyəti öz üzərinə götürüb. |
| 20 Avqust 1905 | Yelizavetpolun general-qubernatoru Nikolay Lutsauya qarşı sui-qəsd, Yelizavetpol, Rusiya İmperiyası. EİFD məsuliyyəti öz üzərinə götürüb. |
| 27 Yanvar 1973 | Türkiyə Respublikasının Baş konsulu Mehmet Baydar və Vitse-konsul Bahadır Demir tək terrorçu Karekin Yanikyan tərəfindən sui-qəsd, Los-Anceles, ABŞ. |
| 22 Oktyabr 1975 | Türkiyənin Avstriyadakı səfiri Daniş Tunalıgilə qarşı sui-qəsd, Vyana, Avstriya. Ermənistanın Azadlığı üçün Gizli Erməni Ordusu (ASALA) və Erməni Soyqırımı Ədalət Komandanlığı (JCAG) məsuliyyəti öz üzərinə götürüblər. |
| 24 Oktyabr 1975 | Türkiyənin Fransadakı səfiri İsmayıl Erezə qarşı sui-qəsd, Paris. ASALA və JCAG məsuliyyəti öz üzərinə götürüblər. |
| 16 Fevral 1976 | Türkiyə Respublikasının Livandakı səfirliyinin birinci katibi Oktar Ciritə qarşı sui-qəsd, Beyrut. ASALA məsuliyyəti öz üzərinə götürüb. |
| 17 May 1976 | Türkiyə Respublikasının Almaniyanın Frankfurt, Köln və Essen şəhərlərindəki baş konsulluqlarında partlayışlar. ASALA məsuliyyəti öz üzərinə götürüb. |
| 28 May 1976 | Türkiyə Garanti Bankının İsveçrə filialında və Türkiyənin İsveçrədə əmək məsələləri üzrə attaşesinin ofisində partlayışlar, Sürix. JCAG məsuliyyəti öz üzərinə götürüb. |
| 8 Yanvar 1977 | Moskvada metro qatarında partlayış nəticəsində 7 nəfərin həlak olması və 37 nəfərin yaralanması. Ermənistanın Milli Birləşmiş Partiyası (NUPA) məsuliyyəti öz üzərinə götürüb. |
| 29 May 1977 | İstanbulun Yeşilköy hava limanında baş verən partlayış nəticəsində 5 nəfərin həlak olması və 42 nəfərin yaralanması. ASALA məsuliyyəti öz üzərinə götürüb. |
| 9 İyun 1977 | Müqəddəs Pavel kilsəsində Türkiyənin Vatikandakı səfiri Taha Carıma qarşı sui-qəsd. JCAG məsuliyyəti öz üzərinə götürüb. |
| 2 İyun 1978 | Türkiyənin İspaniyadakı səfiri Zəki Kuneralpa qarşı sui-qəsd cəhdi nəticəsində səfirin həyat yoldaşı Necla, qardaşı və sabiq səfir Bəşir Balcıoğlunun öldürülməsi, Madrid. ASALA və JCAG məsuliyyəti öz üzərinə götürüblər. |
| 12 Oktyabr 1979 | Türkiyənin Niderlanddakı səfiri Əhməd Benlerin oğluna qarşı sui-qəsd, Haaqa. JCAG məsuliyyəti öz üzərinə götürüb. |
| 22 Dekabr 1979 | Türkiyənin Parisdəki turizm üzrə attaşesi Yılmaz Çolpana qarşı sui-qəsd. JCAG məsuliyyəti öz üzərinə götürüb. |
| 31 İyul 1980 | Silahlı hücüm nəticəsində Türkiyə Respublikasının Afinadakı səfirliyinin İnzibati attaşesi Qalib Özmenin və onun on dörd yaşlı qızının həlak olması, həmçinin həyat yoldaşı və oğlu yaralanması. ASALA məsuliyyəti öz üzərinə götürüb. |
| 26 Sentyabr 1980 | Türkiyə Respublikasının Fransadakı səfirliyinin mətbuat attaşesi Səlçuk Bakkalbaşına qarşı sui-qəsd, Paris. ASALA məsuliyyəti öz üzərinə götürüb. |
| 17 Dekabr 1980 | Türkiyənin Avstraliyadakı Baş konsulu Şarık Arıyaka və təhlükəsizlik məsələləri üzrə attaşe Engin Sevərə qarşı sui-qəsd, Sidney. JCAG məsuliyyəti öz üzərinə götürüb. |

| | |
|---|---|
| 9 İyun 1981 | Türkiyənin Cenevrədəki konsulluğunun katibi Mehmet Savaş Yerquza qarşı sui-qəsd. ASALA məsuliyyəti öz üzərinə götürüb. |
| 15 Sentyabr 1981 | "Türk Hava Yolları" aviaşirkətinin ofisi qarşısında partlayış, Kopenhagen, Danimarka. ASALA məsuliyyəti öz üzərinə götürüb. |
| 28 Yanvar 1982 | Türkiyənin Los-Ancelesdəki baş konsulu Kamal Arıkana qarşı sui-qəsd. JCAG məsuliyyəti öz üzərinə götürüb. |
| 4 May 1982 | Türkiyənin Bostondakı fəxri baş konsulu Orxan Gündüzə qarşı sui-qəsd. JCAG məsuliyyəti öz üzərinə götürüb. |
| 7 İyun 1982 | Türkiyə Respublikasının Portuqaliyadakı səfirliyinin İnzibati attaşesi Ərkut Akbay və onun həyat yoldaşına qarşı sui-qəsd, Lissabon. JCAG məsuliyyəti öz üzərinə götürüb. |
| 7 Avqust 1982 | Esenboğa hava limanında girov götürmə əməliyyatı nəticəsində 10 nəfərin həlak olması və 82 nəfərin yaralanması, Ankara. ASALA məsuliyyəti öz üzərinə götürüb. |
| 27 Avqust 1982 | Türkiyə Respublikasının Kanadadakı səfirliyinin hərbi attaşesi, polkovnik Atilla Altıkata qarşı sui-qəsd, Ottava. JCAG məsuliyyəti öz üzərinə götürüb. |
| 9 Sentyabr 1982 | Türkiyə Respublikasının Bolqarıstandakı Baş Konsulluğunun İnzibati attaşesi Bora Süelkana qarşı sui-qəsd, Burqas. JCAG məsuliyyəti öz üzərinə götürüb. |
| 9 Mart 1983 | Türkiyənin Yuqoslaviyadakı səfiri Qalip Balkara qarşı sui-qəsd, Belqrad. JCAG məsuliyyəti öz üzərinə götürüb. |
| 14 İyul 1983 | Türkiyə Respublikasının Belçikadakı səfirliyinin İnzibati attaşesi Dursun Aksoya qarşı sui-qəsd, Brüssel. ASALA, JCAG və Erməni İnqilabi Ordusu (ARA) məsuliyyəti öz üzərinə götürüblər. |
| 15 İyul 1983 | Orli hava limanındakı "Türk Hava Yolları"nın ofisində partlayış nəticəsində 8 nəfərin həlak olması və 55 nəfərin yaralanması, Paris. ASALA məsuliyyəti öz üzərinə götürüb. |
| 27 İyul 1983 | Türkiyə Respublikasının Portuqaliyadakı səfirliyinin müvəqqəti işlər vəkili Yurtsev Mıhçıoğlunun ailəsinin oğurlanması və nəticədə onun həyat yoldaşı və cangüdəninin öldürülməsi, oğlunun yaralanması, Lissabon. ARA məsuliyyəti öz üzərinə götürüb. |
| 1 Okytabr 1983 | Fransanın Marsel şəhərində keçirilən Beynəlxalq Ticarət Yarmarkasında partlayış nəticəsində 1 nəfərin həlak olması və 26 nəfərin yaralanması. ASALA məsuliyyəti öz üzərinə götürüb. |
| 28 Aprel 1984 | Türkiyə Respublikasının İrandakı səfirliyinin katibi Şadiye Yönderə qarşı sui-qəsd cəhdi nəticəsində onun həyat yoldaşının öldürülməsi, Tehran. ASALA məsuliyyəti öz üzərinə götürüb. |
| 20 İyun 1984 | Türkiyə Respublikasının Avstriyadakı səfirliyinin əmək və sosial məsələlər üzrə müşavirinin köməkçisi Ərdoğan Özenin öldürülməsi və 5 nəfərin yaralanması, Vyana. ARA məsuliyyəti öz üzərinə götürüb. |
| 8 Sentyabr 1984 | Tək terrorçu Gehrikh Vartanov tərəfindən bomba partlayışı nəticəsində 1 nəfərin həlak olması və 6 nəfərin yaralanması, Bakı, Azərbaycan. |
| 19 Noyabr 1984 | Birləşmiş Millətlər Təşkilatının sosial inkişaf və humanitar məsələlər Mərkəzinin direktor müavini Ənvər Ergünə qarşı sui-qəsd, Vyana, Avstriya. ARA məsuliyyəti öz üzərinə götürüb. |
| 23 Noyabr 1986 | Türkiyə Respublikasının Melburndakı Baş konsulluğunun binası qarşısında partlayış nəticəsində bir nəfərin həlak olması və digər nəfərin yaralanması, Avstraliya. ASALA məsuliyyəti öz üzərinə götürüb. |
| 12 Dekabr1988 | Azərbaycanın Xankəndi şəhəri üzərində sərnişin təyyarəsinin vurulması nəticəsində iki ekipaj üzvünün həlak olması. |
| 16 Sentyabr 1989 | Tbilisi-Bakı sərnişin avtobusunun partladılması nəticəsində 5 nəfərin həlak olması və 25 nəfərin yaralanması. |
| 13 Fevral 1990 | Şuşa-Bakı sərnişin avtobusunun partladılması nəticəsində 13 azərbaycanlının yaralanması. |
| 11 İyul 1990 | Tərtər-Kəlbəcər sərnişin avtobusuna silahlı hücum nəticəsində 8 nəfərin həlak olması və 23 nəfərin yaralanması. |
| 10 Avqust 1990 | Xanlarda sərnişin avtobusunun partladılması nəticəsində 17 nəfərin həlak olması və 16 nəfərin yaralanması. |
| 10 Avqust 1990 | Tbilisi-Ağdam sərnişin avtobusunun partladılması nəticəsində 20 nəfərin həlak olması və 30 nəfərin yaralanması. |
| 30 Noyabr 1990 | Şuşadan Xankəndiyə Azərbaycan Daxili İşlər Nazirliyinin əməkdaşlarını daşıyan sərnişin avtobusunun partladılması nəticəsində 2 nəfərin yaralanması. |
| 14 Mart 1991 | Ağdamda sərnişin avtobusunun partladılması nəticəsində 3 nəfərin həlak olması və 4 nəfərin yaralanması. |
| 30 May 1991 | Moskva-Bakı sərnişin qatarının partladılması nəticəsində 11 nəfərin həlak olması və 22 nəfərin yaralanması. |
| 31 İyun 1991 | Moskva-Bakı sərnişin qatarının partladılması nəticəsində 16 nəfərin həlak olması və 20 nəfərin yaralanması. |
| 8 Sentyabr 1991 | Ağdamda sərnişin avtobusunun partladılması nəticəsində 6 nəfərin həlak olması və 36 nəfərin yaralanması. |
| 7 Oktyabr 1991 | Türkiyənin mətbuat attaşesi Çətin Görgüya qarşı sui-qəsd, Afina, Yunanıstan. ASALA məsuliyyəti öz üzərinə götürüb. |
| 20 Noyabr 1991 | Azərbaycanın yüksək səviyyəli rəsmilərini, habelə Qazaxıstan və Rusiya nümayəndələrini daşıyan sərnişin vertolyotunun vurulması nəticəsində 22 nəfərin həlak olması, Xocavənd rayonu. |
| 8 Yanvar 1992 | Krasnovodsk-Bakı Dəniz bərəsinin partladılması nəticəsində 25 nəfərin həlak olması və 88 nəfərin |

| | |
|---|---|
| | yaralanması. |
| 28 Yanvar 1992 | Azərbaycanda sərnişin vertolyotunun vurulması nəticəsində 44 nəfərin həlak olması, Şuşa. |
| 28 Fevral 1993 | Kislovodsk-Bakı sərnişin qatarının partladılması nəticəsində 11 nəfərin həlak olması və 8 nəfərin yaralanması. |
| 11 Dekabr 1993 | Türkiyə Respublikasının İrandakı səfirliyinin inzibati məsələlər üzrə attaşesi Çağlar Yücelə qarşı sui-qəsd. ASALA məsuliyyəti öz üzərinə götürüb. |
| 1 Fevral 1994 | Bakıda sərnişin qatarının partladılması nəticəsində 3 nəfərin həlak olması və 20 nəfərin yaralanması. |
| 13 Aprel 1994 | Moskva-Bakı sərnişin qatarının partladılması nəticəsində 6 nəfərin həlak olması və 3 digər nəfərin yaralanması. |
| 3 İyul 1994 | Bakı Metropoliteninin qatarının partladılması nəticəsində 13 nəfərin həlak olması və 42 nəfərin yaralanması. |
| 7 İyul 1994 | Türkiyə Respublikasının Yunanıstandakı səfirliyinin müşaviri Haluk Sipahioğluna qarşı sui-qəsd, Afina. ASALA məsuliyyəti öz üzərinə götürüb. |
| 8 Mart 2011 | Azərbaycanın Ağdam rayonuna uşaqlardan ibarət qrupa atəş açılması nəticəsində 9 yaşlı Azərbaycanlı uşağın həlak olması. |
| 14 İyul 2011 | Ermənistandan Azərbaycana axan çaya partlayıcı daşıyan oyuncağın atılması nəticəsində 13 yaşlı azərbaycanlı qızın həlak olması və onun 32 yaşlı anasının ağır yaralanması, Tovuz rayonu. |
| 4 İyul 2017 | Dinc sakinlərin atəşə tutulması nəticəsində 2 yaşlı azərbaycanlı qızın həlak olması, onun 51 yaşlı nənəsi və digər 52 yaşlı bir qadının yaralanması, Füzuli rayonu. |